SIGMA
Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU

15-ci Xülasə

Sentyabr 2011-ci il

Dövlət satınalmaları

Dəyəri maliyyə həddinə çatmayan müqavilələr

MÜNDƏRİCAT

- Giriş
- Milli normalar, siyasətlər və prosedurlar haqqında məlumat
  - Dəyəri maliyyə həddinə çatmayan müqavilələrin tənzimlənməsi
  - Ümumi satınalma prosedurları
  - Təkliflərin təqdim edilməsi üçün dəvət və elanın verilməsi qaydaları
  - Vaxt limitləri
  - Keyfiyyət seçimi
  - Şikayət Prosedurları
- Saziş prinsiplərinin dəyəri maliyyə həddinə çatmayan satınalmalara təsiri

EUROPEAN COMMISSION
OECD BETTER POLICIES FOR BETTER LIVES
www.sigmaweb.org
Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya SIGMA proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

Giriş

Bu Xülasədə maliyyə həddini ötməyən satınalma müqavilələrinə nəzər salınır. Bu kontekst daxilində “həddi ötməyən” dedikdə, satınalan təşkilatların dəyəri işlər, mallar və xidmətlər üçün müəyyən edilmiş Aİ maliyyə həddindən aşağı olan satınalma müqavilələri nəzərdə tutulur. 2010-2011-ci il üçün Aİ maliyyə hədləri aşağıdakı kimidir: İşlərin satına alınması müqavilələri üçün 4 845 000 avro, malların satın alınması müqavilələri üçün 125 000 avro, xidmətlərin satın alınması müqavilələri üçün 193 000 avro. Mallar və məhsullar üçün iki müxtəlif həddin müəyyən edilməsinin izahı daxil olmaqla daha ətraflı məlumat almaq üçün bax*: Satınalmalar haqqında 5-ci Xülasə - Aİ maliyyə hədlərinin başa düşülməsi*.

Dəyəri maliyyə həddini ötməyən müqavilələr satınalan təşkilatlar tərəfindən təltif olunan müqavilələrin böyük əksəriyyətini təşkil edir və buna görə də bütün Aİ-yə üzv dövlətlərdə böyük əhəmiyyət kəsb edir. Onlar təsərrüfat subyektləri tərəfindən irihəcmli xərcləmələri, eləcə də təsərrüfat subyektləri, o cümlədən orta və kiçik müəssisələr üçün böyük biznes fürsətlərini təcəssüm etdirirlər.

Maliyyə həddini ötməyən müqavilələr dövlət sektorunda satınalmalar haqqında 2004/18EC saylı direktivin (bundan sonra "Direktiv") tətbiq dairəsinə daxil deyil. Bu o deməkdir ki, satınalan təşkilatlar tərəfindən təltif edilən müqavilələrin əksəriyyəti milli norma, siyasət və prosedurlardan istifadə edilməklə təltif edilir. Lakin bir sıra mühüm meyarlar hər bir halda tətbiq edilir.

Maliyyə həddini ötməyən müqavilələr üçün nəzərdə tutulan satınalma prosesləri:

- **Effektivlik və səmərəli olmalıdır -** konkret satınalmanın tələblərini və gözlənilən nəticələrini əks etdirən sənədlərdən, vaxt cədvəllərindən və proseslərdən istifadə edin
- **Proporsionallığa riayət etməli və lüzumsuz bürokratiyadan yayınmalıdır** ki, satınalan təşkilatların və ya təsərrüfat subyektlərinin üzərinə satınalma müqaviləsinin miqyası, dəyəri və mürəkkəblik dərəcəsi ilə müqayisədə həddən artıq mürəkkəb, qeyri-adekvat dərəcədə bürokratik və inzibati yük, yaxud xərc qoyulmasın.

- **Müvafiq rəqabət səviyyəsini təmin etməlidir**, belə ki, açıq və ədalətli rəqabət kiçik və orta müəssisələr, xüsusən aşağı dəyərli müqavilələrə cəlb edilə biləcək yeni yaradılmış şirkətlər daxil olmaqla, potensial iddiaçıların daha geniş dairəsi üçün cəlbedici ola bilər.
- **Şəffaf olmalıdır,** belə ki prosesin şəffaflığı açıq və ədalətli rəqabətə xidmət edir, həmçinin korrupsiyaya və tərəfkeşliyə qarşı zəmanətin verilməsinə kömək edir
- **Saziş qaydalarına və prinsiplərinə uyğun olmalıdır**, həmçinin müəyyən bir müqavilə üçün müvafiq olduqda, Avropa İttifaqının Ədalət Məhkəməsi (AİƏM) tərəfindən hazırlanmış əsas standartlara riayət etməlidir - Əlavə məlumat üçün bax: Cari Xülasənin B bölməsi
- **Dövlət vəsaitindən maksimum dərəcədə səmərəli istifadəsinə xidmət etməlidir** - nəzərdə tutulan nəticələrin əldə edilməsi üçün resursların optimal şəkildə paylaşdırılmasını təmin etməklə.

İqtisadi, ictimai və inzibati fərqlilikləri nəzərə almaqla, üzv dövlətlər dəyəri maliyyə həddinə çatmayan müqavilələrin təltif edilməsi haqqında qərar qəbul edərkən bu və ya digər məsələləri balanslaşdıra bilərlər.

Cari xülasənin B bölməsində üzv dövlətlərin milli satınalma normalarının, siyasətlərinin və prosedurların hazırlanması ilə bağlı qəbul etdikləri yanaşmaların çox qısa icmalı verilir. Bu bilgi 22 üzv dövlətdən alınmış məlumatların təhlil edildiyi 45 saylı SIGMA hesabatından (2010) götürülmüşdür (Əlavə məlumat üçün hesabata baxın).

Xülasənin B bölməsində Saziş qaydalarının və prinsiplərinin, əsas standartların və direktivin bəzi müddəalarının maliyyə həddini ötməyən satınalma müqavilələrinə necə təsir edə biləcəyi barədə əlavə məlumat verilir. Çox vaxt bu təsirlər üzv dövlətlərin maliyyə həddini ötməyən müqavilələrə aid edilən satınalma normalarında, siyasət və prosedurlarında müəyyən dərəcədə əks olunur, məsələn, bərabər yanaşma, ayrı-seçkiliyin yolverilməzliyi və şəffaflıq prinsiplərinə riayət edilməsi tələbinə istinad edilməklə.

Milli normalar, siyasətlər və prosedurlar haqqında məlumat
(Daha ətraflı məlumat üçün bax: 45 saylı İƏİT/SIGMA sənədi)

Dəyəri maliyyə həddinə çatmayan müqavilələrin tənzimlənməsi: Maliyyə həddinə çatmayan və maliyyə həddini aşan müqavilələrin bir-birlərindən fərqləndirilməsi və onlara ayrı-ayrı satınalma prosedurlarının tətbiq edilməsi üzv dövlətlərdə geniş qəbul edilmiş praktikadır. Üzv dövlətlərin əksəriyyəti klassik sektorda dəyəri maliyyə həddinə çatmayan satınalmaları qanun və ya normalarla tənzimləyir, dəyəri maliyyə həddinə çatmayan müqavilələrin açıq, ədalətli rəqabətin təmin olunduğu prosedurlar vasitəsi ilə təqdim edilməsini tələb edirlər. Çox az sayda üzv dövlət dəyəri maliyyə həddinə çatmayan müqavilələri könüllülüyə əsaslanan normalar və ya rəhbər sənədlər vasitəsi ilə tənzimləyir. Çox vaxt üzv dövlətlər həm maliyyə həddini ötməyən, həm də maliyyə həddini ötən müqavilələrin əhatə edilməsi üçün eyni qanun və ya normalardan istifadə edirlər, baxmayaraq ki, bu zaman tətbiq olunan faktiki qaydalar bir-birlərindən fərqli ola bilir .

Milli hədlər və ümumi satınalma prosedurları. Bir qayda olaraq maliyyə həddini ötməyən müqavilələrə sadələşdirilmiş prosedurlar və bütöv Aİ rejimi ilə müqayisədə sərt olmayan qaydalar tətbiq edilir. Çox vaxt dəyəri maliyyə həddinə çatmayan müqavilələr üçün həmçinin iki və ya üç əlavə dəyər qrupu müəyyən edilir, bu halda prosedur tələblər və vaxt limitləri müxtəlif dəyər qruplarına əsasən tətbiq edilir. Maliyyə hədlərinin və əlaqədar prosedurların məqsədi ən yaxşı Sloveniyanın 45 saylı SIGMA hesabatı üçün nəzərdə tutulan anketə verdiyi cavabda təsvir edilir: “təltif edilmə prosedurlarının müqavilənin predmeti çərçivəsində saxlanması, ələlxüsus da müqavilənin hesablanmış dəyərinin proporsionallıq prinsipinə uyğun olması”.

Birbaşa satınalmaya, başqa sözlə, təsərrüfat subyektindən elanın verilməsi və ya müsabiqə prosesinin keçirilməsi tələb olunmadan həyata keçirilən satınalmaya yalnız çox aşağı dəyərli müqavilələr bağlanan zaman icazə verilir. Hansı müqavilələrin çox aşağı dəyərli müqavilə olduğunun qərarlaşdırılması məsələsi üzv dövlətdən asılı olaraq dəyişir, lakin prosedurların tətbiq edilməsinə icazə verilməsi üçün maksimum hədd əsasən 5 000 avro ilə 15 000 avro arasında dəyişir. Başqa ölkələrdə daha aşağı maliyyə həddi münasib sayıla bilər.

Sadələşdirilmiş prosedurlara həmçinin aşağıdakı nümunələr daxildir: (a) satınalan təşkilatdan əvvəlcədən elan vermədən müəyyən edilmiş sayda iddiaçıya kotirovka sorğusu verməsinin, iddiaçıları təklif verməyə dəvət etməsinin tələb edilməsi – beləliklə, müəyyən səviyyəli rəqabətin təmin edilməsi; (b) milli portalda elanın verilməsi yolu ilə iki təklifin axtarılması, lakin sadələşdirilmiş prosedurdan istifadə edilməsi - beləliklə şəffaflıq və rəqabətin təmin edilməsi, lakin bu zaman müqavilənin mahiyyətinə və dəyərinə proporsional prosesdən istifadə edilməli və həddən artıq bürokratik yanaşmaya yol verilməməlidir.

Dəyər qruplarının və dəyəri maliyyə həddinə çatmayan müqavilələrə tətbiq olunan prosedurların izah edilməsinin ən yaxşı üsulu misalların çəkilməsidir. Rumıniyada:

- **15 000 avroya qədər dəyəri olan iş, mal və ya xidmətlərin satın alınması müqavilələri** birbaşa satınalma ilə təmin edilə bilər.
- **125 000 avroya qədər dəyəri olan mal və xidmətlərin satınalması müqavilələri, 4 845 000 avroya qədər dəyəri olan iş satınalması müqavilələri** sadələşdirilmiş prosedurlardan (təsərrüfat subyektlərinin təklif verməyə dəvət edilməsi) istifadə edilməklə təmin edilə bilər, məsələn:
  - müqavilə haqqında bildiriş mərkəzi veb-portalda (e-bildiriş platformu) dərc edilməlidir - lakin sadələşdirilmiş qaydada;
  - təkliflərin təqdim edilməsi üçün vaxt limiti 10 gündür və sənədlər elektron şəkildə təqdim edildiyi halda, bu müddət 6 günə qədər azala bilər - (bu, maliyyə həddini ötən satınalmalarla müqayisədə olduqca qısa müddətdir);
  - moratorium müddəti maliyyə həddini aşan satınalmalarda olduğu kimi 11 gün deyil, 6 gündür.
- **Dəyəri 125 000 avrodan artıq olan xidmət və malların satın alınması müqavilələri** Aİ prosedurlarından istifadə edilməklə, lakin daha azmüddətli vaxt limitlərinin tətbiqi ilə təmin edilməlidir. Məsələn 52 günə (sənədlər elektron şəkildə təqdim edildiyi halda 47 gün) bərabər olan Aİ vaxt müddətindən fərqli olaraq, açıq prosedur üçün tətbiq olunan vaxt limiti 20 gündür (sənədlər elektron şəkildə təqdim edildiyi halda 15 gün).

Təkliflərin təqdim edilməsi üçün dəvət və elanın verilməsi qaydaları Dəyərindən asılı olmayaraq, müqavilə fürsətləri haqqında bildirişlərin dərc edilməsi və ya elanların

verilməsi rəqabəti təşviq edə, ödənilən pul vəsaitinin qarşılığının alınmasına kömək edə, prosesin şəffaflığına töhfə verə bilər. Dəyəri müəyyən edilmiş maliyyə həddindən aşağı olan müqavilələr üçün müqavilə haqqında bildirişlərin və ya elanların dərc edilməsi çox vaxt milli normalara, siyasətlərə və prosedurlara əsasən tələb olunur. Bu tələblərin müqavilənin mahiyyətinə və dəyərinə proporsional olması, lakin eyni zamanda bildirişlərin hədəf auditoriyaya çatması vacibdir.

Bəzi üzv dövlətlər dəyərindən asılı olmayaraq, bütün müqavilələr üçün nəzərdə tutulan standart milli onlayn portallardan və/və ya elektron formatlardan istifadə etməklə elanın verilməsi şərtlərinin ödənməsini tələb edirlər. Digər ölkələr satınalan təşkilatlardan öz internet saytlarında elan verməyi tələb edirlər və ya elanın verilib-verilməsi ilə bağlı qərarın qəbul edilməsini satınalan təşkilatın öz öhdəsinə buraxırlar. Yerli və ya dövlət səviyyəsində yayılan qəzetlərdə elanın verilməsi də məqsədəuyğun ola bilər, lakin bu zaman belə bir tələbin inzibati nöqteyi-nəzərdən və xərclərin yaranması baxımdan məqbul və proporsional olub-olmadığı, həddən artıq bürokratik yanaşmaya rəvac verib-vermədiyi ehtiyatla götür-qoy edilməlidir.

E-satınalma metodlarından və vasitələrindən istifadə edilməklə elanın verilməsi və tender dəvətləri haqqında ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 12-ci Xülasə – E-satınalma*.

Vaxt limitləri Əksər üzv dövlətlər dəyəri maliyyə həddindən aşağı olan və maliyyə həddini ötən müqavilələri bir-birlərindən fərqləndirməyə üstünlük verirlər. Bu fərqləndirməyə çox vaxt dəyəri maliyyə həddinə çatmayan müqavilələrin satınalma prosedurları üçün fərqli vaxt limitlərinin müəyyən edilməsi daxil olur. Həm ərizələrin, həm də təkliflərin təqdim edilməsi üçün vaxt limitlərinin azaldılması geniş yayılmış sadələşdirmə üsuludur. Minimum vaxt limiti müəyyən edildikdə, adətən bu limit ərizələrin verilməsi üçün 10-15, təkliflərin təqdim edilməsi üçün isə 10-25 gün arasında dəyişə bilir. Sənədlər elektron şəkildə təqdim edildiyi halda, bu vaxt limitləri azala bilər.

Keyfiyyət seçimi: Bir sıra üzv dövlətlər həm dəyəri maliyyə həddinə çatan, həm də çatmayan müqavilələr üçün mahiyyət etibari ilə eyni keyfiyyət seçimi qaydaları tətbiq edirlər. Dəyəri maliyyə həddini ötən müqavilələrə münasibətdə tətbiq edilən rejimlə müqayisədə əsas fərq ixtisas uyğunluğunun sübuta yetirilməsi tələbi ilə bağlıdır. Bu

fərqlilik prosesin proporsionallığının və həddən artıq bürokratik olmamasının təmin edilməsi ehtiyacına əsaslanır. Məsələn, bəzi üzv dövlətlərdə təsərrüfat subyektləri müvafiq ixtisasa malik olduqlarını müəyyən edilmiş sənədlər yerinə bəyanat təqdim etməklə sübuta yetirə bilərlər. Bəzi üzv dövlətlərdə bürokratiyanın azaldılması məqsədilə təsərrüfat subyektlərindən dövlət orqanlarının haqqında əlaqədar məlumatları mühafizə etdikləri dəlilləri təmin etmək tələb olunmur. Bu məlumatların əldə edilməsi dövlət orqanlarının öhdəsinə buraxılır. Direktivdə keyfiyyət seçimi ilə bağlı tətbiq edilən tələblər barədə daha ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 7-ci Xülasə - Təsərrüfat subyektlərinin seçilməsi*.

Texniki spesifikasiyalar: 45 saylı SİGMA hesabatında nəzərdən keçirilən ölkələrin demək olar hamısı maliyyə həddinə çatan və çatmayan müqavilələr üçün eyni texniki spesifikasiya qaydaları tətbiq edirlər. Dəyəri müəyyən edilmiş maliyyə həddinə çatan müqavilələrə tətbiq edilən texniki spesifikasiya qaydaları direktivdə göstərilir və spesifikasiyaların şəffaf və ayrı-seçkilidən xali olmasının təmin edilməsinə xidmət edir.

Təltif edilmə meyarları və təkliflərin qiymətləndirilməsi: Direktivdə təltif edilmə meyarlarının seçimi ən aşağı qiymətə və ya ən səmərəli təklifə əsaslanır. Tədqiq edilmiş üzv dövlətlərin əksəriyyətində maliyyə həddinə çatmayan müqavilələrə münasibətdə də bu seçimin edilməsinə icazə verilir. Dəyəri maliyyə həddinə çatan müqavilələrdə bu məsələlərin necə həll edildiyi ilə bağlı ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 8-ci Xülasə - Təltif edilmə meyarlarının müəyyən edilməsi və Satınalmalar haqqında 9-cu Xülasə - Təkliflərin qiymətləndirilməsi və Müqavilənin təltif edilməsi*.

Şikayətlərin baxılması: Avropa Komissiyasının mövqeyi bundan ibarətdir ki, dəyəri maliyyə həddinə çatmayan müqavilələr və direktivin müddəalarının tam tətbiq olunmadığı müqavilələr üçün nəzərdə tutulan hüquqi müdafiə vasitələri ölkə qanunvericiliyi çərçivəsində oxşar iddialara münasibətdə tətbiq olunan hüquqi müdafiə vasitələrindən daha az effektiv olmamalı və məhkəmə müdafiəsinin əldə edilməsini qeyri-mümkün etməməli, yaxud həddən artıq çətinləşdirməməlidir. Praktiki olaraq, tədqiq edilmiş ölkələrin əksəriyyəti dəyəri maliyyə həddinə çatan və çatmayan müqavilələrlə əlaqədar hüquqi müdafiə vasitələrinə qarşı eyni yanaşmanı qəbul etmişlər. Ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 12-ci Xülasə - Hüquqi müdafiə vasitələri*

Saziş prinsiplərinin və digər hüquqi prinsiplərin maliyyə həddini ötməyən satınalmalara təsiri

Qeyd: Növbəti bölmədə *Komissiyanın dövlət satınalmaları direktivinin müddəalarının tətbiq olunmadığı və ya tam tətbiq olunmadığı müqavilələrə şamil edilən Avropa İqtisadi Cəmiyyəti qanunu haqqında izahedici sənədinin (İS)(2006/C 179/02)* qısa punktlar vasitəsilə icmalı verilir. Daha ətraflı məlumat üçün izahedici sənədə baxın.

Müqavilə qaydaları və prinsipləri: Müqavilənin tətbiq dairəsinə daxil olan müqavilələr bağlayan zaman satınalan təşkilatlar Aİ Sazişinin (indi Avropa İttifaqının Fəaliyyəti haqqında Saziş) qayda və prinsiplərinə əməl etməlidir. Satınalma kontekstində bu qayda və prinsiplərə aşağıdakılar daxildir:

- Malların sərbəst hərəkəti
- İqtisadi fəaliyyət hüququ
- Xidmət göstərmək azadlığı
- Ayrı-seçkiliyin yolverilməzliyi və bərabər yanaşma
- Şəffaflıq
- Proporsionallıq
- Qarşılıqlı tanınma

Şəffaflıq öhdəliyi: Avropa İttifaqının Ədalət Məhkəməsi (AİƏM) qərara almışdır ki, milli mənsubiyyət zəminində ayrı-seçkiliyin yolverilməzliyi və bərabər yanaşma prinsipləri şəffaflıq öhdəliyinin zəruriliyini nəzərdə tutur.

Əsas standartlar: Dövlət sifarişi müqavilələrinin təltif edilməsi üçün AƏM birbaşa Saziş qaydaları və prinsipləri əsasında hazırlanmış əsas standartlar kompleksi hazırlamışdır. AİƏM presedent hüququna görə, şəffaflıq öhdəliyi potensial iddiaçının xeyrinə verilən elanın xidmət bazarının rəqabətə açıq vəziyyətə gətirilməsi üçün yetərli olmasının və prosedurlarının tərəfsizliyinin təmin edilməsindən ibarətdir.

İzahedici sənəddə göstərilir ki, əsas standartlar Aİ daxili bazarı üçün münasib olan və beləliklə başqa üzv dövlətlərin təsərrüfat subyektləri üçün potensial maraq kəsb edən müqavilələrə şamil edilir. Aşağıdakı qeydə nəzər salın.

Sözügedən müqavilənin daxili bazar üçün münasib olduğu qənaətinə gələn satınalan təşkilatdan direktivə əməl etmək tələb olunmur, lakin o, müqaviləni əsas standartlara əsasən təltif etməlidir.

Aİ daxili bazarı üçün münasiblik

Avropa Komissiyası bu fikirdədir ki, nəzərdə tutulan müqavilənin digər üzv dövlətlərdə yerləşən təsərrüfat subyektləri üçün potensial maraq kəsb edib-etmədiyinin qərarlaşdırılması ayrı-ayrı satınalan təşkilatların cavabdehliyidir və bu qərar hər bir hal üçün səciyyəvi konkret şərait nəzərə alınmaqla qəbul edilməlidir. Avropa Komissiyası nəzərə alınmalı olan bəzi amillərlə bağlı nümunələr çəkir, bu amillərə müqavilənin əsas predmeti, ilkin dəyəri, bazarın miqyası, strukturu, kommersiya təcrübələri və fəaliyyətin həyata keçiriləcəyi coğrafi məkan daxil ola bilər.

Əsas standartlara uyğunluq: İzahedici sənəddə Avropa Komissiyası əsas standartları üç başlıq altında: "elanın verilməsi" "müqavilənin təltif edilməsi" (başqa sözlə, müqavilənin təltif edilməsi ilə əlaqədar prosedurların bitərəfliyi) və "məhkəmə müdafiəsi" başlıqları altında müəyyən edir. Komissiya həmçinin əsas standartlara uyğunluğun nə demək olduğu barədə fikrini aşağıdakı kimi ifadə edir:

- **Adekvat elanın verilməsinin təmin edilməsi öhdəliyi:** bu öhdəlik verilən elanın xidmət bazarının rəqabətə açıq vəziyyətə gətirilməsi üçün yetərli olmasını tələb edir və başqa üzv dövlətdəki müəssisələrin müqavilə təltif edilməzdən əvvəl marağını ifadə edə bilmək üçün müvafiq məlumatı əldə etməsinə təminat verir. İzahedici sənəddə elanın verilməsinin adekvat və geniş yayılmış üsullarından nümunələr göstərilir.

- **Müqavilənin təltif edilməsinə şamil edilən prinsiplər:** Təltif edilmə Saziş prinsiplərinə və qaydalarına uyğun olmalı və beləliklə, müqavilədə maraqlı bütün təsərrüfat subyektləri üçün ədalətli rəqabətin təmin edilməsinə, eləcə də müqavilənin bitərəf prosedurlar əsasında təltif edilməsinə zəmanət verməlidir. Bura daxildir:
    - müqavilə predmetinin ayrı-seçkiliyə yol verilmədən təsvir edilməsi
    - bütün üzv dövlətlərin təsərrüfat subyektləri üçün bərabər iştirak imkanı
    - diplomların, şəhadətnamələrin və ixtisaslaşmalara dair digər rəsmi

dəlillərinin qarşılıqlı tanınması
- müvafiq vaxt limitlərindən istifadə
- şəffaf və obyektiv yanaşmanın tətbiqi

- **Məhkəmə müdafiəsi:** Prosedurlara tərəfsiz və effektiv şəkildə yenidən baxılması üçün mexanizmlərin mövcud olması tələb olunur.

Qeydlər

Bu Xülasənin B bölməsindən aydın olduğu kimi, üzv dövlətlərin maliyyə həddini ötməyən müqavilələrin təltif edilməsi ilə bağlı qaydalarının, siyasətlərinin və prosedurlarının məqsədi bu prinsiplərin əks etdirilməsidir. Qeyd edilməlidir ki, bir çox üzv dövlətlərdə çox aşağı dəyərli müqavilələri elanın verilməsi və tam müsabiqə prosesinin keçirilməsi öhdəliyindən effektiv şəkildə azad edən qaydalar mövcuddur. Bu praqmatik yanaşma çox aşağı dəyərli əksər müqavilələrin Aİ daxili bazarı üçün münasib olmayacağını, eləcə də müqavilələrin bağlanması üçün istifadə edilən prosesin müqaviləyə proporsional olması ehtiyacını nəzərə alır.

Aqreqasiya haqqında qeyd

Aqreqasiya qaydalarının dəyəri maliyyə həddinə çatmayan müqavilələrə təsiri: Dəyəri müəyyən edilmiş maliyyə hədlərinə çatmayan müqavilələrə xas bir təhlükə aqreqasiya qaydalarına laqeyd yanaşılmasıdır. Direktivdə müəyyən edilən bu qaydalar, məsələn, satınalan təşkilatlardan müəyyən layihə çərçivəsində təltif edilməli olan iş və ya xidmət müqavilələrinin ayır-ayrı lotlarının toplanmasını tələb edir. Ayrı-ayrılıqda hər bir müqavilənin dəyəri müvafiq Aİ maliyyə həddindən aşağı ola bilər, lakin bir-birləri ilə toplandıqa bu müqavilələrin ümumi dəyəri Aİ maliyyə həddini ötə bilər. Bu halda, direktiv, bir qayda olaraq, dəyəri maliyyə həddinə çatmayan bu müqavilələrin hər birinin təltif edilməsi zamanı tətbiq edilir.

Oxşar qaydada, satınalan təşkilata oxşar malları eyni zamanda ayrı-ayrı lotlar vasitəsi ilə almaq tələb olunduqda, bütün satınalmaların ümumi dəyəri Aİ maliyyə həddinə çatıb-çatmadığının müəyyən edilməsi məqsədilə hesablanmalıdır.

Satınalan təşkilatın təkrarlanan və ya oxşar tələbləri olduqda, direktivin tələblərinin ödənməsinin inzibati yüklərinin minimuma endirilməsi ilə təmin edilməsinin praktiki üsulu mərkəzi satınalma və/və ya çərçivə müqavilələrinin istifadəsindən ibarətdir. Ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 19-cu Xülasə - Çərçivə müqavilələri - Satınalmalar haqqında 20-ci Xülasə - Mərkəzi satınalma orqanları*.

Maliyyə hədləri və aqreqasiya qaydaları haqqında daha ətraflı məlumat üçün bax: *Satınalmalar haqqında 5-ci Xülasə - Aİ maliyyə hədlərinin başa düşülməsi*.

Əlavə ədəbiyyat siyahısı:

İƏİT SIGMA veb-saytı: http://www.sigmaweb.org
Aİ-yə üzv dövlətlərdə dövlət satınalmaları haqqında 45 saylı SIGMA hesabatı (2010) - Dəyəri müəyyən edilmiş Aİ maliyyə hədlərinə çatmayan və Aİ direktivlərinin ətraflı qaydaları ilə əhatə olunmayan sahələrə aid müqavilələrinin tənzimlənməsi

Avropa Komissiyasının internet saytı:
http://ec.europa.eu/internal_market/publicprocurement
Avropa Komissiyasının dövlət satınalmaları direktivinin müddəalarının tətbiq olunmadığı və ya tam tətbiq olunmadığı müqavilələrə şamil edilən Avropa İqtisadi Cəmiyyəti qanunu haqqında izahedici sənədi (İS)(2006/C 179/02)